

1. Ümumi hissə.

1.1. “Medprosvet” qrupu onlayn rejimdə xəstələrə tibbi-maarifləndirici yardımın göstərilməsi məqsədi ilə yaradılmışdır.

1.2. Qrupda məsləhətlər istənilən dildə aparılır.

1.3. Facebook sosial şəbəkəsinin hər bir istifadəçisi qrupun üzvü ola bilər.

1.4. “Medprosvet” sizin sualınızı cavablandırmağa zəmanət vermir və pulsuz olduğu üçün qrup iştirakçıları qarşısında heç bir digər öhdəliyi öz üzərinə götürmür.

1.5. Qrupda konsultasiyalar yalnız tibbi təhsilə malik mütəxəssislər və ya ixtisas dərəcəsi (sənədlə təsdiqlənən) əlaqəli sualları cavablandırmaq hüququ verən mütəxəssislər tərəfindən həyata keçirilir (məsələn, səhiyyədə qanunlarla bağlı suallar hüquqşünaslar tərəfindən şərh edilə bilər və s.).

1.6. Qrupun idarəsi qrup rəhbərliyi tərəfindən həyata keçirilir.

1.7. Qrupun rəhbərliyi qrup üzvlərinə xəbardarlıq etmədən istənilən anda qaydaları dəyişmək hüququnu özündə saxlayır.

1.8. Rəhbərlik təcili, bu qaydalarda əks olunmayan hallarda qaydalardan kənar hərəkət etmək hüququnu özündə saxlayır.

1.9. “Medprosvet” qrupunun rəhbərliyi qrup iştirakçılarının paylaşımlarına və şərhlərinə görə Facebook saytı, hər hansı ölkənin qüvvədə olan qanunvericiliyi və ya beynəlxalq hüquq qarşısında məsuliyyət daşımır. Onlara görə məsuliyyəti tam olaraq müəllif özü daşıyır.

2. Rəhbərliyin hüquq və vəzifələri.

2.1. “Medprosvet” administrasiyası facebook sosial şəbəkəsinə, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan bütün hüquqlara malikdir. Qrup rəhbərliyinin fəaliyyəti qrupun qaydaları ilə tənzimlənmir.

2.2. “Medprosvet” rəhbərliyi qrup üzvləri qarşısında öz üzərinə heç bir öhdəlik götürmür.

2.3. İstənilən xeyriyyə fəaliyyəti yalnız "Medprosvet" qrupunun administrasiyasının sanksiyası altında və maliyyə hesabatlarının tam şəffaflığına nəzarəti ilə həyata keçirilir.

3. Qrupun həkimlərinin hüquq və vəzifələri.

3.1. Qrupa daxil olmuş hər bir həkim, pasient kimi sual vermək, pasientlərin suallarına cavab vermək və həmçinin ətraflı şəxsi sorğu üçün pasienti şəxsi yazışmaya dəvət etmək hüququna malikdir.

3.2. Qrupa daxil olmuş hər bir həkim, pasienti əyani konsultasiyaya dəvət etmək hüququna malikdir.

3.3. Qrupa daxil olmuş hər bir həkim qrupun qaydalarına riayət etməlidir. Həkimlərə məsləhət görülür ki, xoşagəlməz anlaşılmazlıqların qarşısını almaq üçün ilk professional şərhi etməzdən əvvəl peşəsi haqqında qrup rəhbərliyini xəbərdar etsinlər.

4. Qrup iştirakçısının hüquq və vəzifələri.

4.1. Hər bir qrup istifadəçisi tibbi və ya tibbə yaxın mövzuya aid sual vermək hüququna malikdir.

4.2. Qrupda hər bir istifadəçi qeyd olunan qaydalara zidd olmayan tibbi məqalələr, tibbi və ya tibbə yaxın mövzulara aid digər paylaşımlar (həmçinin yumor) etmək hüququna malikdir.

4.3. Qrupun hər bir istifadəçisi istənilən paylaşımı “up” etmək hüququna malikdir. Həmçinin istənilən paylaşıma neytral şərhlə (məsələn nöqtə ilə) abunə ola bilər.

4.4. Qrupun hər bir istifadəçisi qrupun qaydalarına riayət etməlidir.

4.5. Qrupa yazmaq istəməyən hər bir istifadəçi çəkinmədən qrupun həkimlərinə şəxsi ismarıc yaza bilər.

4.6. Efirlərin yayımı zamanı #medprosvet və ya #медпросвет həşteqlərinin qoyulması mütləqdir.

5. Ümumi qadağalar.

5.1. Tibb sahəsində mütəxəssis olmayan qrup iştirakçıları “Medprosvet” qrupunda tibbi suallara cavab verə bilməzlər.

5.2. Qrupun iştirakçıları təhsilindən asılı olmayaraq qrupda olmayan həkimləri məsləhət görə bilməzlər. Qrupda olan həkimləri isə yalnız işarələmək olar, heç bir ünvan və ya telefon nömrəsi qeyd etmək olmaz.

5.3. Qrupun iştirakçıları təhsilindən asılı olmayaraq “Medprosvet” qrupunda dərmanları, klinikaları, həkimləri reklam etmək, həmçinin digər reklam fəaliyyətini həyata keçirmək hüququna malik deyildir.

5.4. Qrupun mövzusundan kənar istənilən paylaşımlar qadağandır. Off-top izləniləcək.

5.5. İstənilən şəkildə istənilən siyasi və dini müzakirələr qadağandır.

5.6. Qrupun istənilən istifadəçisinin və ya qrupa aid olmayan hər hansı bir insanin şərəf və ləyaqətinin alçaldılması, həmçinin şəxsiyyətə keçməklə istənilən formada lağa qoyulması qadağandır.

5.7. Rəhbərlik tərəfindən göstərilmiş sorğu və ya mövzu formasında olmayan tibbin mübahisəli etik məsələlərinin (abort və ya onun qadağası, evtanaziya və ya onun qadağan olunması və s. kimi) müzakirəsi qadağandır.

5.8. Səbəbindən və vəziyyətdən asılı olmayaraq, başqalarının mövzularında öz suallarınızın verilməsi qadağandır. Öz sualınızın ayrıca paylaşım şəklində verilməsi mütləqdir.

5.9. Qrup açıqlamasında xüsusi ilə bunun üçün qeyd olunmuş mövzu istisna olmaqla təhsilindən asılı olmayaraq hamıya inzibati funksiyaların həyata keçirilməsinə görə rəhbərliyin fəaliyyətinin müzakirəsi qadağandır.

5.10. Qrup açıqlamasında xüsusi ilə bunun üçün qeyd olunmuş mövzu istisna olmaqla həkim olmayanlara qrup həkiminin fəaliyyətinin müzakirəsi qadağandır.

5.11. Yanlış məlumat və zərərverici əfsanələri yaymaq qadağandır.

5.12. Bu qaydalar şəxsi yazışmalara şamil edilmir.

5.13. Qrupda administrasiyanı xəbərdar etmədən və administrasiyanın razılığı olamadan canlı yayıma çıxmaq, həmçinin başqa yayımlarla bölüşmək qadağandır.

5.14. Müalicənin və ya müayinə keyfiyyətinin yoxlanılması məqsədilə əvvəlcədən həkim və klinika haqda məlumatlar silinməmiş reseptlərin və analiz nəticələrinin paylaşılması qadağandır.

5.15 Xəstəliklə əlaqəli və ya istənilən xoşagəlməz fotoların paylaşılması qadağandır. Bütün fotoları həkimin şəxsi hesabına göndərin. Bu qayda qrupun təhlükəsizliyi ilə birbaşa əlaqədar olduğu üçün qaydanı pozanlar dərhal ban olunacaq.

6. Həkimlərə xüsusi qadağalar.

6.1. Qrupun həkimlərinə sualın şərhində tam müalicə kursunu yazmaq qadağandır, belə ki, biz qəti əminik ki, əyani konsultasiyasız tam müalicəni yazmaq praktiki olaraq mümkün deyildir. Bu qaydalar həkim və pasientin şəxsi yazışmalarına şamil edilmir. Bu qayda pəhriz tövsiyələrini məhdudlaşdırmır, həmçinin sadə tibbi tövsiyələr onlayn rejimdə mümkündür.

6.2. Qrupun həkimlərinə öz əlaqə nömrələrini və elektron poçt ünvanlarını, ICQ, Skype və s. məlumatlarını paylaşımların şərhlərində, xüsusən də qrupun ayrı-ayrı ismarıclarında yazmaq qadağandır. Bu qaydalar həkim və pasientin şəxsi yazışmalarına şamil edilmir.

6.3. Qrupun həkimlərinə pasientlərlə yazışmanı paylaşmaq qəti şəkildə qadağandır.

6.4. Qrupun həkimlərinə pasientin konkret sualı altında bir-biri ilə mübahisə etmək qəti şəkildə qadağandır. Bu etik deyil. Yalnız əvvəlki şərhdən sonra həmkarın sizin fikrinizcə səhv olan şərhinə alternativ fikir söyləmək olar.

6.5. Əməliyyata və ya istənilən başqa manipulyasiyaya onlayn göstəriş, həmçinin abortun onlayn tövsiyəsi kimi onlayn təcili yardım göstərilməsi də qadağandır. Bu qaydaya diaqnostik manipulyasiyalar aid edilmir.

6.6. Ölümcül, zöhrəvi, psixiatrik diaqnozların açıq şəkildə qoyulması qadağandır. (etika)

6.7. Bu qaydalar şəxsi yazışmalara şamil edilmir.

7. Cəzalandırma.

7.1. Bu qaydaların pozulmasına görə rəhbərlik öz qərarı ilə qaydanı pozan şəxsin elanının pozulması, qayda pozanın özünün qrupdan uzaqlaşdırılması və ya onun tamamilə ban edilməsi barədə qərar qəbul edə bilər.

7.2. Ban edilmiş qayda pozan şəxs rəhbərlik ilə şəxsi yazışmada bundan sonra qaydaları pozmamağı öhdəsinə götürərsə, qrupa yenidən qayıda bilər.

8. Tibbi elmi senzura və akviliferlər haqda.

8.1 Medprosvet qrupunda sübutlu tibbə əsaslanan, qrupda məlumatın keyfiyyətinin yüksəldilməsinə və qeyri-elmi məsləhətlərin qarşısının alınmasına yönəldilmiş tibbi senzura mövcuddur.

8.2 Tibbi senzuranı akviliferlər həyata keçirirlər. Akvifilirlər nəzarət etdikləri sahədə göstərilən tibbi xidmətin keyfiyyətindən cavabdehdirlər.

8.3 Yalnız nəzarət edəcəyi ixtisasda ali təhsilə malik olan insan akvilifer ola bilər

8.4 Akviliferlər medprosvetin administratorları tərəfindən təyin və ləğv olunur. Onların fəaliyyətinə qrupun adminləri tərəfindən və qaydalarına əsasən nəzarət olunur. Medprosvetin administratoru və onun yaxın qohumu akvilifer ola bilməz.

8.5 Bir ixtisas üzrə yalnız bir akvilifer təyin olunur.

8.6 Akviliferə olan tələblər: öz ixtisasında yüksək biliyə sahib olmaq, sübutlu tibbin tərəfdarı olmaq, medprosvetdə istifadə olunan iki və daha artıq dili bilmək, beynəlxalq protokollara və onların mərkəzləşdirilmiş mənbələrinə bələd olmaq, medprosvetin ideyalarına sadiq olmaq, uzun müddət onlayn olmaq, medprosvetin tədbirlərində şəxsi iştirak, kolleqalar arasında nüfuza sahib olmaq, işləmək arzusu və imkanı.

8.7 Akviliferlərin hüquqları: akviliferlər öz ixtisaslarına aid məsələlərdə senzor kimi çıxış edə bilər, siyahıya həkim əlavə edib, silə bilər, üzürlü səbələrə görə həkimlərə öz ixtisasları olan məsələlərdə məsləhət verməyi qadağan edə bilər, praktik məsləhətlərlə bölüşə bilər, həmçinin öz ixtisaslarına aid praktik məsləhətlərin silinməsini tələb edə bilərlər.

Tərcüməyə görə dərin minnətdarlıq Мехрибан Алибейли-Мамедова və Айтен Алекперова